**Nəqliyyat və logistika fakültəsinin sosial məsələlər, ictmaiyyətlə əlaqələr və infrastruktur  üzrə dekan müavini**
**Abdinzadə Sevinc Məhərrəm qızı**

E-poçt: sevinc.abdinzade@aztu.edu.az

Sevinc Məhərrəm qızı Abdinzadə 1993-cü ildə Naxçıvan MR-ın Şərur rayonu Qarxun kəndində anadan olub. 1999-2010-cu illərdə Bakı şəhəri Xəzər rayon Buzovna qəsəbəsi 26 nömrəli məktəbdə təhsil alıb.

2010-cu ildə Azərbaycan Texniki Universitetinin Nəqliyyat fakültəsinin nəqliyyat servisi (avtomobil nəqliyyatı üzrə) ixtisasına qəbul olunub və 2014-cü ildə məzun olub.

2014-2016-cu illərdə Azərbaycan Texniki Universitetində  Nəqliyyat fakültəsinin nəqliyyat servisi ( avtomobil nəqliyyatı üzrə) ixtisasının magistratura pilləsini fərqlənmə ilə bitirib.

Əmək fəaliyyətinə 2016-cı ildə Azərbaycan Texniki Universitetinin Nəqliyyat fakültəsində tyutor ( akademik məsləhətçi)  kimi başlayıb.

2017-2020-ci illərdə Azərbaycan Texniki Universitetinin Avtomobil texnikası kafedrasında assistent  vəzifəsində çalışıb.

2018-ci ilin martında Azərbaycan Texniki Universitetində 3327.01 – Nəqliyyat sistemləri texnologiyası ixtisası üzrə doktoranturaya qəbul olunub.

2020-ci ilin sentyabrından Nəqliyyat logistikası və hərəkətin təhlükəsizliyi kafedrasında böyük laborant və 0.5 ştat assistent vəzifəsində çalışıb.

2021-2022-ci ilərdə Nəqliyyat logistikası və hərəkətin təhlükəsizliyi kafedrasında assistent, 2023-cü ildən bu günə kimi həmin kafedrada baş müəllim vəzifəsində çalışır.

2025-ci ildən Nəqliyyat və logistika fakültəsində sosial məsələlər, ictimaiyyətlə əlaqələr və infrastruktur üzrə dekan müavini vəzifəsində çalışır.

7 elmi məqalənin, 2 fənn proqramının həmmüəllifidir.

Yeni Azərbaycan Partiyasının (YAP) üzvüdür.

Ailəlidir, 1 oğlu var.